# Azərbaycan-Belarus münasibətləri strateji tərəfdaşlığa əsaslanır

## Aleksandr Lukaşenkonun ölkəmizə səfəri ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə müsbət impuls verəcək

**"Azərbaycan və Belarus arasında diplomatik əlaqələr 1993-cü ilin iyun ayından başlayıb. İki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq xarakterlidir".**



Bu sözləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Arzu Nağıyev deyib. Deputat bildirib ki, ölkələrimiz arasında münasibətlərin inkişafında, formalaşmasında dövlət başçılarının böyük rolu var. Bunda yüksəksəviyyəli dialoq ən mühüm istiqamət kimi qiymətləndirilir və qarşılıqlı anlaşma vacib rol oynayır. Azərbaycan və Belarus arasında parlamentlərarası əlaqələr də mövcuddur. Milli Məclisdə Azərbaycan-Belarus parlamentlərarası əlaqələr üzrə işçi qrup fəaliyyət göstərir və keçirilən tədbirlərdə, seçkilərdə parlamentlərin üzvləri qarşılıqlı şəkildə müşahidəçi qismində daim iştirak edirlər.

Azərbaycan və Belarus arasında ticarət fəaliyyəti də var, 270-dən çox müəssisənin iştirakı ilə 300-dən çox malın qarşılıqlı təchizatı həyata keçirilir. Əllidən çox Azərbaycan şirkəti Belarus müəssisələrində qanuni nümayəndəlik kimi təmsil olunurlar. Azərbaycanda Belarus kənd təsərrüfatı məhsullarının satışını həyata keçirən xüsusi təyinatlı mağazalar da var. Deputat qeyd edib ki, Azərbaycandan Belarusa neft məhsulları, polietilen, digər kimyəvi məhsullar, şokolad məmulatları, meyvə şirələri, bentonit, gil, pambıq, iplik, alüminium materialları ixrac olunur. "Belarusdan isə Azərbaycana traktor, ağac materialları, qazma maşınlarının ehtiyat hissələri, elektrik naqilləri, qida və kənd təsərrüfatı məhsulları, dərman preparatları və digərləri gətirilir. Belarus Prezidentinin Bakıda Prezident İlham Əliyevlə həm təkbətək danışıqları, həm də nümayəndə heyətlərinin üzvlərinin iştirakı ilə geniş tərkibdə görüşləri keçirildi. Prezidentlər ticari, iqtisadi əlaqələrin genişləndirilməsindən, sənaye və kənd təsərrüfatı sahəsində gələcək perspektivlərdən danışdılar. Ümumiyyətlə, bir sıra aktual məsələlər nəzərdən keçirildi. Danışıqların digər mövzusu, təbii ki, beynəlxalq platformada hər iki ölkənin bir-birinə dəstək verməsi və əməkdaşlıq məsələsi idi. Həmçinin qlobal və regional məsələlər ətrafında müzakirələr aparıldı", - deyə o əlavə edib.

A.Nağıyev vurğulayıb ki, bu gün baş verən hadisələr - Rusiya-Ukrayna müharibəsi, Cənubi Qafqazda olan gərginlik və bir sıra problemlərin həlli istiqamətində atılan addımlar həm Belarus, həm Azərbaycan üçün çox mühüm olduğundan bu proseslərin təhlili də böyük əhəmiyyət daşıyır. Aleksandr Lukaşenkonun da qeyd etdiyi kimi, bizim elə bir qapalı mövzumuz yoxdur, hər şey açıqdır. Həm Azərbaycan tərəfi, həm Belarus dünyada baş verən prosesləri yaxşı dərk edir və buna uyğun olaraq da qarşılıqlı ünsiyyət qurulur.

Deputat vurğulayıb ki, Lukaşenko həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa işlərində iştirak etməyə hazır olduğunu bildirib. Yəqin ki, bu istiqamətdə də addımlar atılacaq.

Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana dövlət səfəri qarşılıqlı münasibətlərin daha da inkişaf etməsinə öz töhfəsini verəcək.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 17 may, № 102.- S.9.